# Milli mükafat 2020







***"Humay"*** Milli Mükafatı Akademiyası 2020-ci ilin qaliblərini elan etdi. Laureatlar arasında "Azərbaycan mədəniyyətini uğurla təbliğ etdiyinə, dövri nəşrlər arasında öz dəsti-xətti ilə secildiyinə görə" "Mədəniyyət/Culture" Jurnalı və jurnalın baş redaktoru, Respublikanın Əməkdar Mədəniyyət İşçisi, filologiya üzrə fəlsəfə doktoru Zöhrə Əliyeva da var.

***"Humay"*** 1993-cü ildən "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyəti tərəfindən təsis olunan və laureatları "Humay" Akademiyasının üzvləri tərəfindən müəyyən edilən milli mükafatdır. Laureatlar əsasən ədəbiyyat, teatr, musiqi, rəqs, kino, elm, kitab nəşri, mətbuat, televiziya, idman, foto nominasiyaları üzrə fərqlənən namizədlər arasından seçilir.

Müstəqil Azərbaycanın ilk milli mükafatının 28-ci təqdimatının işğal tariximizin sona çatması ilə bağlı təəssürat və düşüncələrini mükafatın təsisçisi Fikrət Zərbəliyev "Mədəniyyət/Culture" jurnalına belə ifadə etdi:

"Şəhidlərimizin qanı, canı bahasına biz nəhayət ki, ərazi bütövlüyümüzü bərpa etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! ***"Humay"*** Mükafatının rəmzi olan Humay ilahəsi ana obrazı, mədəniyyətimizi və deməli bütün xalqımızı hifz edən qüvvə, öz qanadları altına alan müqəddəs varlıq kimi anlaşılır. Mükafatımızın laureatları Möhtərəmlər Şurasının qərarı ilə seçilir. "Humay" Milli Mükafatı Akademiyasının üzvlərini hər bir ziyalı və sadə azərbaycanlı, həmçinin dünya Azərbaycanlıları da yaxşı tanıyır. Bunlar yazıçılar Anar, Çingiz Abdullayev, kino xadimləri Oqtay Mirqasımov, Rasim Balayev, musiqi xadimlərindən Səyavuş Kərimi, Faiq Sücəddinov, rəssamlıq sahəsindən Çingiz Fərzəliyev və bir çox digər yaradıcı şəxslərdir. Laureatların seçimi onların fikrindən, rəyindən asılıdır.

***"Mədəniyyət/Culture"*** jurnalı Mədəniyyət Nazirliyinin təqdimatı ilə digər nominantlar arasından seçilib. Möhtərəmlər Şurası jurnalın yeni simasının, yeni məzmununun müəllifi Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, tanınmış jurnalist, alim Zöhrə Əliyevanın zəhmətinə dəyər verərək jurnalı və onun baş redaktorunu "Humay" mükafatına layiq görüb. Zöhrə xanıma və kollektivinə daha böyük nailiyyətlər arzulayıram".

"Mədəniyyət/Culture" 1967-ci ildən Mədəniyyət Nazirliyinin mətbu orqan olaraq "Mədəni-maarif işi", sonra "Mədəni həyat", daha sonra isə "Mədəniyyət.AZ" adı altında nəşr olunan jurnalın layiqli varisi, müasir dövrün nəbzini tutmağı və milli ənənələrə sadiqliyi ilə seçilən dolğun bir nəşrdir.

Zöhrə Qulamhüseyn qızı Əliyeva 2015-ci ilin mart ayından jurnala rəhbərlik edir. Nəşr həmin vaxtdan "Mədəniyyət.AZ" (jurnalın "medeniyyet.info" saytı da o dövrdə fəaliyyətə başlayıb), 2020-ci ildən isə ***"Mədəniyyət/Culture"*** adı ilə işıq üzü görməkdədir.




**Rəşadət**